**Hər gün, hər saat mükəmməlliyə doğru!**

# ELMİ-TƏDQİQAT

# STRATEGİYASI

**2018-2023**

**Xəzər Universiteti haqqında**

Xəzər Universiteti Azərbaycanda fəaliyyətə başlayan tədris dili ingilis dili olan və tələbəyönümlü yanaşmanı həyata keçirən ilk ali təhsil müəssisəsidir. Xəzər Universitetində mühəndislik, tətbiqi elmlər, iqtisadiyyat, biznes idarəçiliyi, humanitar və sosial elmlər, təhsil və digər sahələr üzrə yüksək səviyyədə kadr hazırlığı aparılır. Müxtəlif ixtisaslar üzrə magistratura və doktorantura, peşəkar inkişaf proqramları, həmçinin, Azərbaycanda ən nüfuzlu proqramlardan olan MBA proqramı universitetin strateji inkişafında mühüm yer tutur.

Xəzər Universitetində keyfiyyət həmişə diqqət mərkəzində saxlanılır. Fəaliyyətdə olduğu müddətdə, Xəzər Universitetində əsas təhsil dilinin ingilis dili olması və tətbiq etdiyi tədris proqramlarının beynəlxalq standartlara cavab verməsi, tələbələrin müasir dərs vəsaitlərindən və elektron məlumat bazalarından istifadə etməsinə, təhsillərini dünyanın aparıcı universitetlərində davam etdirməsinə, xarici universitetlərin professor-müəllim heyətinin innovativ dərslərinin təşkilinə geniş imkan verir.

Xəzər Universitetinin diplomlarının beynəlxalq arenada tanınması məzunlarımızın magistratura və doktorantura səviyyələrində təhsillərini xarici ölkələrin ən qabaqcıl ali məktəblərində davam etdirməsinə və iş imkanları əldə etməsinə şərait yaradır.

Ali təhsildə keyfiyyətin təminatı mərkəzi ölkəmizdə 1998-ci ildə ABŞ və Avropanın qabaqcıl universitetləri ilə əməkdaşlıq çərçivəsində bu sahədə fəaliyyətə başlayan ilk qurumdur.
Çoxsaylı xarici universitetlər və digər qurumlarla beynəlxalq əlaqələrin qurulması, ikili diplom proqramının reallaşdırılması, müxtəlif beynəlxalq layihələrin, tələbə-müəllim mübadilə proqramlarının həyata keçirilməsi Xəzər Universitetinin beynəlmiləlləşmə strategiyasının hədəflərindən biridir.

**Missiya**

Xəzər Universitetinin missiyası ali təhsilin hər üç səviyyəsində tələbə mərkəzli keyfiyyətli təhsil verən, tədqiqat yönümlü, öz fəaliyyətini davamlı inkişaf etdirən, Azərbaycana və bütövlükdə regiona xidmət edən universitet olmaqdır.

**Gələcəyə baxış**

Universitetin hədəfi, milli və beynəlxalq səviyyədə bütün tərəfdaşlarla çoxşaxəli əməkdaşlıq quraraq təhsil və tədqiqat sahəsindəki nüfuzu ilə tanınan dünya səviyyəli təhsil müəssisəsinə çevrilməkdir.

**Bizi birləşdirən dəyərlər**

- **Liberallıq -** tədqiqat, tədris və sosial xidmət fəaliyyətində azadlıq və bərabərlik prinsiplərinə sadiqlik.
- **Yaradıcılıq -** hər bir fəaliyyətin həyata keçirilməsinə innovativ və yaradıcı yanaşma.

- **Ömürboyu öyrənmə -** insanların ömürboyu öyrənmə marağına və fasiləsizliyə dəstək.
- **Peşəkarlıq -** fəaliyyətin mütəmadi olaraq səmərəliliyinin və etibarlılığının qüvvətləndirmək.
- **Liderlik -** tərəqqiyə yönələn mövqeyin inkişafına dəstək.

**Xəzər Universitetinin 2018-2023-cü illəri əhatə edən Elmi-Tədqiqat Strategiyası aşağıdakı 5 istiqamətdən (hədəfdən) ibarətdir:**

1. Aparıcı tədqiqat yönümlü universitetə çevrilmək;
2. Akademik heyətin tədqiqat bacarıqlarını təkmilləşdirilmək və tədqiqat fəaliyyətlərinə dəstək vermək;
3. Magistratura və doktorantura təhsil pilləsində tədqiqat mühitini və kadr hazırlığının keyfiyyətini yaxşılaşdırmaq;
4. Elmi-tədqiqatlar sahəsində beynəlxalq əlaqələri genişləndirmək;
5. Universitet-sənaye münasibətlərini universitetin tədqiqat və innovasiya imkanlarının inkişafı istiqamətində təkmilləşdirmək.

**Strateji hədəf 1: Aparıcı tədqiqat yönümlü universitetə çevrilmək.**

**1.1. Elmi tədqiqatın inkişafına zəmin yaradan mexanizmləri hazırlamaq və elmi tədqiqat işlərinin nəticələrinin artırılması üçün insan potensialının gücləndirilməsini təmin etmək:**

1.1.1. Keyfiyyətli tədqiqat parametrlərini müəyyənləşdirən uyğun təlimatların hazırlanmasını təmin etmək;

1.1.2. Keyfiyyətli tədqiqatın təbliğ-təşviq mexanizmlərinin təkmilləşdirmək;

1.1.3. Yüksək potensiallı, xaricdə impakt faktorlu jurnallarda məqalələri dərc olunan tədqiqatçıların universitetə cəlb edilməsini təmin etmək;

1.1.4. Davamlı tədqiqat işləri aparan akademik heyətin inkişafı və tədqiqat fəaliyyətlərinin uzunmüddətli davam etdirməsi üçün dəstəkverici mühitin yaradılmasını təmin etmək.

**1.2. Tədqiqat keyfiyyətinin artırılmasında departamentlərin rolunu gücləndirmək:**

1.2.1. Elmi fəaliyyətin təşkili və idarə olunmasının mərkəzləşdirilməsi və səmərəliliyin artrırılması məqsədilə müvafiq strukturlar yaratmaqı və ya təkmilləşdirmək;

1.2.2. Departmentlərin elmi-tədqiqat fəaliyyətində rolunu gücləndirmək üçün daxili normativ sənədlərdə uyğun dəyişikliklər etmək;

1.2.3. Departamentlərin inkişaf planına və tədqiqatçı potensialına uyğun olaraq fəaliyyət planlarını müəyyən etmək, onları ehtiyacına uyğun olaraq maliyyə resursları ilə dəstəkləmək;

1.2.4. Departamentlərdə müvafiq prioritet elm sahələri üzrə elmi kadrların hazırlanması işini təkmilləşdirmək.

**1.3. Elmi fəaliyyətin təşkili və idarə olunmasını təkmilləşdirilmək, tədqiqatlar zamanı yaranmış biliyin idarə edilməsini gücləndirmək:**

1.3.1. Tədqiqatdan yaranan biliyin, nəticənin qeydiyyatı və idarə edilməsi haqqında təlimat hazırlamaq;

1.3.2. Bütün departamentlərin bu təlimatlarla tanış olmasını təmin etmək;

1.3.3. Yaranmış yeni biliklərin universitetin ümumi sistemində qeydiyyatdan səliqəli və vaxtında keçməsini təmin etmək;

1.3.4. Departamentlərin tədqiqat nəticələrinin kommersiyalaşdırılması üçün dəstək vermək.

**Strateji hədəf 2: Akademik heyətin tədqiqat bacarıqlarını təkmilləşdirmək və tədqiqat fəaliyyətlərinə dəstək vermək.**

2.1. **Akademik heyətin tədqiqat bacarıqlarını təkmilləşdirmək:**

2.1.1. Tədqiqatla məşğul olan akademik heyətin ehtiyaclarına uyğun davamlı peşəkar təlimlərin təşkil olunmasını təmin etmək;

2.1.2. Nəşr etdirmək performansını artırmaq üçün bibliometriklər və onların istifadəsi (EndNote və Mendeley proqramları) haqqında təlimlər keçirmək;

2.1.3. Müxtəlif sahələr üzrə yerli və beynəlxalq qrant layihələrinə çağırış haqqında seminar keçirmək;

2.1.4. Texnologiya transferi – tədqiqat nəticələrinin kommersiyalaşdırılması, patentləşdirmə haqqında seminar və təlimlər keçirmək.

2.2. **Akademik heyətin tədqiqat fəaliyyətlərinə dəstək vermək:**

2.2.1. Tədqiqatçıların beynəlxalq elmi jurnallara əlçatalığının təmin edilməsi üçün beynəlxalq elektron resurslara çıxışları genişləndirmək;

2.2.2. Universitet tədqiqatçıları üçün DSpace elektron arxivində şəxsi səhifələr yaratmaq (http://dspace.khazar.org);

2.2.3. SCOPUS və Web of Science indeksli jurnallarda elmi məqalələrin dərc olunmasının təşviq edilməsi ilə qlobal elmi məkana inteqrasiyanı sürətləndirilmək, məqaləsi dərc olunan tədqiqatçıların mükafatlandırılması planını hazırlamaq;

2.2.4. Tədqiqatçıların müxtəlif beynəlxalq əlaqələrini dəstəklənmək, qısa müddətli tədqiqat ezamiyyələrə maliyyə dəstəyi vermək;
2.2.5. Universitetdə müxtəlif beynəlxalq elmi konfransların keçirilməsinə texniki və maddi dəstək göstərmək.

**Strateji hədəf 3. Magistratura və doktorantura təhsil pilləsində tədqiqat mühitini və kadr hazırlığının keyfiyyətini yaxşılaşdırmaq.**

3.1 **Magistratura və doktorantura təhsili səviyyəsində tədqiqat yönümlü vərdişləri təkmilləşdmək:**

3.1.1. Magistrant və doktorantların tədqiqat bacarıqlarının inkişafına töhfə verən müxtəlif seminar və vorkşoplar keçirmək;
3.1.2. Magistratura təhsil pilləsində tədqiqat metodologiyası fənninin sillabuslarını yaxşılaşdırmaq, məqalə əsaslı tezis yazılması mərhələsinə keçmək üçün hazırlıqlara başlamaq;
3.1.3. Tələbələri müxtəlif beynəlxalq layihələr çərçivəsində tədqiqat yönümlü start-up layihələrinə cəlb etmək;
3.1.4. Magistrant və doktorantların tədqiqat nəticələrini təqdim etməsinə və nəşr edilməsinə dəstək göstərmək.

3.2. **Magistratura və doktorantura təhsili səviyyəsində kadr hazırlığının keyfiyyətini artırmaq:**

3.2.1. Magistrant və doktorantları universitetdə aparılan elmi tədqiqat işləri və qrant layihələrinə cəlb etmək;
3.2.2. Xarici ölkələrin nüfuzlu universitetlərində çalışan alimləri kadr hazırlığına cəlb etmək;
3.2.3. Magistrant və doktorantlar üçün partner üniversitetlərdə və tədqiqat mərkəzlərində tədqiqat aparmaq imkanlarını yaratmaq;
3.2.4. Tədqiqat üçün avadanlıq və digər zəruri ehtiyaclara (reagent və s.) maliyyə vəsaiti ayırmaq;
3.2.5. Doktorantların universitet daxili təqaüd proqramlarına cəlbinin təşviqi kimi motivasiyaedici fəaliyyətləri təkmilləşdirmək;
3.2.6. Doktorant və dissertantları universitetdə tədris prosesinə cəlb etmək.

**Strateji hədəf 4: Elmi-tədqiqatlar sahəsində beynəlxalq əlaqələri genişləndirmək.**

4.1. **Elmi tədqiqatın inkişafı üçün beynəlxalq əməkdaşlıq şəbəkəsini genişləndirmək:**

4.1.1. Birgə tədqiqatların aparılması üçün beynəlxalq əməkdaşlıqların genişləndirilməsini təmin etmək;

4.1.2. Doktorantların və tədqiqatçıların beynəlxalq qrant layihələrində, mübadilə proqramlarında iştirakını təbliğ-təşviq etmək;

4.1.3. Tədqiqatdan yaranan yeni biliklərin universitetin ümumi sistemində qeydiyyatdan keçməsini təmin etmək;

4.1.4. Beynəlxalq reytinqlərdə dünyanın ən yaxşı universitetləri sırasında yer alınmasını təmin etmək, önəmli olan göstəricilər üzrə mövqeyi möhkəmlətmək üçün uyğun resurslarla (maliyyə, insan və s.) təmin etmək.

**Strateji hədəf 5: Universitet-sənaye münasibətlərini universitetin tədqiqat və innovasiya imkanlarının inkişafı istiqamətində təkmilləşdirmək.**

**5.1. Universitetin prioritet qoyduğu ixtisas sahələri üçün müvafiq müəssisə və şirkətlərlə çoxşaxəli əməkdaşlıq qurmaq və bu əməkdaşlığı inkişaf etdirmək:**

5.1.1. Aparılan və planlaşdırılmış tədqiqat sahələri üzrə şirkətlərlə anlaşmanın sayını artırmaq;

5.1.2. Departamentləri bu əlaqələrin inkişaf etdirilməsi üçün təşviq etmək və uyğun təlimatlarla təmin etmək;

5.1.3. Ölkədə prioritet sahələrdə fəaliyyət göstərən istehsal müəssisələri (aqrar, texnologiya, kimya, komputer sənayesi) ilə əlaqələri genişləndirmək, onlardan təkliflər almaq.